

*Ramiz DUYĞUN*

# HARAY İNSAN, HARAY DÜNYA

***(Koronavirus pandemiyası təhlükəsi qarşısında dünya tibb elminin aciz qalması insanlığın fəlakətidir)***

Bu halından xar olmuşam,
Xar ay insan, xar ay dünya.
Düzü məəttəl qalmışam,
Haray insan, haray dünya.

Əl - ələ ver girləş, bəsdir!
Öz - özündə yerləş, bəsdir!
Qitə - qitə birləş bəsdir!
Ar ay insan, ar ay dünya.
Haray insan, haray dünya.

Tarixin, talein zayıl,
İnsansansa insan sayıl!
Di bəsdir yatdığın, ayıl!
Ol özünə yar ay insan, yar ay dünya,
Haray insan, haray dünya!

Əlin gödək, dilin uzun,
Özünə çatmayır ruzun.
Gözə görünməz virusun,
Qabağımda şar ay insan, şar ay dünya,
Haray insan, haray dünya!

Bir şey deyil, bir him - cimsən,
Ata - analı yetimsən...
Özünə bax, bir gör kimsən.
Tez əriyən qar ay insan, qar ay dünya,
Haray insan, haray dünya!

Taunsan, vəbasan, tifsən,
Öz üzündə qara kifsən...
Aciz, çox gücsüz, zəifsən.
Öz səsinə kar ay insan, kar ay dünya,
Haray insan, haray dünya!

Tapmacasan sirr deyilsən,
Öz qarşında dur əyil sən!
Heç nəyə qadir deyilsən.
Dərd önündə zar ay insan, zar ay dünya,
Haray insan, haray dünya!

Dediyim kimi him -cimsən,
Nə hakimsən, nə həkimsən.
Koronavir dedi kimsən...
Öz - özünə çar ay insan, çar ay dünya,
Haray insan, haray dünya!

Bir üzün tox, bir üzün ac,
Uşaqların ac - yalavac.
Dünyadan baş götürüb qaç,
Dünya sənə dar ay insan, dar ay dünya,
Haray insan, haray dünya!

Bir gör ulu qüdrətini,
Sən nələrə sərf edirsən.
Sən özünü məhv etməkçin,
Silah - sursat kəşf edirsən.

Ac olanın tox olana etirazı,
Az olanın çox olana etirazı,
Zəbt eləmək, qəsb eləmək ehtirası,
Öz altına alıb səni,
Ayaqlara salıb səni.
Bu bölgədən, o bölgəyə,
Bu ölkədən, o ölkəyə,
Bu sərhəddən o sərhədə,
Əldə silah, dildə hədə,
Hisə, çisə bürünürsən,
Timsah kimi sürünürsən...

Heç bir şeyin dərininə sən varmırsan,
Sən özünü qorumağı bacarmırsan.
Sən bir yolluq anla, dərk et,
Heç də nadir deyilsən sən,
Heç özünü qorumağa
Hazır, qadir deyilsən sən...
Səndən güclü, çox qüdrətli
Kor qüvvələr
Var ay insan, var ay dünya,
Haray insan, haray dünya!

Sən acizsən, sən zəifsən,
Müxtəlifsən, sən mütisən.
Üzə gəlməz, üzə gülməz,
Nəfs, tamah mühitisən.
Öz içini, öz qəlbini yar ay insan,
yar ay dünya,
Haray insan, haray dünya!

Sən qalmısan öz - özünü
Baltalaya - baltalaya,
Yabalaya - yabalaya.
Sən qalmısan,
Mikroskopla,
Adi gözlə görünməyən
Koronavirusun əlində
Çabalaya - çabalaya.
Sən başını itirmisən, gic olmusan.
Bir virusun, bir mikrobun
Əlində mir - mic olmusan.
Xar olmusan,
Xar ay insan, xar ay dünya,
Haray insan, haray dünya!
Anladınmı, qandınmı sən,
Heç də nadir deyilsən sən.
Heç özünü qorumağa
Hazır, qadir deyilsən sən...

Car bunu,
Sən özünə, insanlığa,
Car, ay insan, car ay dünya,
Haray insan, haray dünya!

Atom, nüvə silahını
Kəşf eləmək əsas deyil.
İnsanlığa bu xas deyil.
Əsas budur:
Sən özünü qorumağı bacarasan!
Əsas çörək bişirməyi,
Əsas xəmir yoğurmağı bacarasan!
Bu sənətdən əl götürmə,
Bu adətdən əl götürmə,
Hər an, hər gün, hər ay insan,
Hər ay dünya!
Haray insan, haray dünya!..

Koronavirus əlindən
Axşamın yox, səhərin yox,
Heç özündən xəbərin yox!
Var, ay insan?
Var, ay dünya?
OYANASAN!
SABAHININ KEŞİYİNDƏ
DAYANASAN!

*Bakı, 4 may 2020 il.*
.